# Rəqabətli bazar mühitində korrupsiya tipologiyaları

Korrupsiya – ayrı-ayrı obyektiv və subyektiv faktorların təsirindən asılı olaraq müxtəlif növ ictimai münasibətlərdə mövcud olan nizamın fərqli formalarda pozulması ilə nəticələnən bir prosesdir. Məhz sözügedən səbəblərin müxtəlifliyi və doğurduğu nəticələrin fərqliliyi bu təzahürün antropologiyası ilə bağlı bu gün istər praktiki fəaliyyətdə, istərsə də akademik mühitdə kəskin fikir ayrılığına gətirib çıxarır.

Belə ki, bu problemin mənşəcə mədəni, tarixi, hüquqi-institusional, sosial-iqtisadi və digər oxşar faktorlardan qaynaqlanmasına dair əks yanaşmalar mövcud olsa da, bu fikirlərin heç birində məsələnin ciddiliyi danılmır. Heç də təsadüfi deyildir ki, bu sahədə əsas beynəlxalq standartları müəyyən edən Birləşmiş Millətlər Təşkilatının “Korrupsiya Əleyhinə Konvensiyası”nın (UNCAC) Preambulasında korrupsiya artıq sıradan bir cinayət hadisəsi kimi deyil, bütün ölkələrin cəmiyyət və iqtisadiyyatına toxunan transmilli problem kimi nəzərdən keçirilir. Hər bir halda istənilən xəstəliyin müalicəsi üçün düzgün diaqnoz nə qədər həyati əhəmiyyət daşıyırsa, korrupsiya probleminin mənşəyini düzgün müəyyən etmək də onun aradan qaldırılması üçün bir o qədər faydalı olardı.

Qeyd edildiyi kimi, korrupsiya ictimai münasibətlər sisteminin müxtəlif aspektləri ilə bağlı olsa da, onun izləri iqtisadi baxış bucağından daha aydın sezilməklə müxtəlif iqtisadi ekosistemlərdə özünü fərqli tipologiyalar şəklində biruzə verir. Korrupsiyanın iqtisadi prizmadan daha yaxşı qavranılması onun mahiyyət etibarı ilə daha çox maliyyə xarakterli olması ilə də izah oluna bilər. Korrupsiyanın müxtəlif iqtisadi sistemlərə təsir gücünün ölçülməsi isə fikrimizcə əlavə araşdırma mövzusu ola bilər.

Hazırki məqalə elmi ədəbiyyatda geniş yer verilmiş neoklassik iqtisadi nəzəriyyədən irəli gələn rəqabətli və azad bazar iqtisadiyyatına xarakterik korrupsiya tipologiyalarının təsvirinə və onların mənşəyinin araşdırılmasına yönəlmişdir.

### Neoklassik iqtisadi yanaşmaya ümumi baxış

Neoklassik iqtisadi yanaşmanın müfəssəl şəkildə dərk edilməsi üçün bu nəzəriyyədə təsvir edilən azad bazar iqtisadiyyatının fundamental prinsiplərinin mahiyyətinə varmaq faydalı olardı. Sözügedən yanaşmanın tərəfdarı olan tanınmış iqtisadçı Qari Bekkerə görə rasional və könüllü qərar qəbuletmə potensialı azad bazarın təməl daşıdır (1978). Başqa sözlə azad və rəqabətli bazarda qiymətlər süni formada diktə olunmur, əksinə təbii şəkildə formalaşır. Belə ki, bu növ bazar münasibətləri kontekstində həm istehsalçılar, həm də istehlakçılar müstəqil qiymət verənlər kimi fəaliyyətdə olsalar da qiymətlər tərəflər arasında mövcud olan iqtisadi münasibətlər zəminində özü-özlüyündən formalaşır. Bu fikir eyni zamanda, digər məşhur iqtisadçı alim Adam Smitin (1776) “gözəgörünməz əl” metaforu ilə üst-üstə düşür: insan təbiətində olan eqo və şəxsi maraq amili sanki görünməz bir qüvvə kimi azad bazar dinamikasını idarə edir (Offer, 2012).

Bu təbii iqtisadi qanunauyğunluq istehsalçıların mümkün olan ən az (ağlabatan) resurslardan istifadə etməklə öz maliyyə qazanclarını maksimuma çatdırmaq niyyəti ilə ən aşağı maliyyə xərcləri ilə maksimal keyfiyyətli məhsul axtaran istehlakçılar arasında mövcud olan qarşılıqlı əlaqənin simmetriyasından yaranır. İstehlakçı və istehsalçıların çoxluğu rəqabətli bazar mühitində rasional seçim imkanı yaratmaqla, tələb və təklif dinamikasını formalaşdırmağa imkan verir. Tələbin artması təklifi də artıma stimullaşdırır. Təklif tələbi üstələdikdə isə tələb azalmağa başlayır. Bu azalma təklifin də müvafiq olaraq enməsinə səbəb olur. Bu proses daim təkrarlanmaqdadır. Qiymət tarazlığını məhz qeyd edilən tələb və təklif amilləri arasındakı təbii simmetriya formalaşdırır. Beləliklə də qiymət sözügedən amillər arasındakı nisbətdən asılı olaraq dəyişir (Khan, 2000 a).

Bütün bu elementlər neoklassik yanaşmanın nəzərdə tutduğu ideal bazar münasibətlərini əhatə edir. Bu yanaşma nöqteyi-nəzərindən hər hansı kənar müdaxilə, hətta dövlət tərəfindən iqtisadi tənzimləmənin ən kiçik forması belə təbii tarazlığı poza biləcəyi üçün arzuolunmaz hesab edilir. Göründüyü kimi neoklassik yanaşma ümumilikdə mükəmməl hesab edilsə də, iqtisadiyyata kənar müdaxilənin bu nəzəriyyə tərəfindən qəti şəkildə istisna edilməsi onun zəif cəhəti hesab edilə bilər. Çünki nəzəri cəhətdən mükəmməl

görünən azad və rəqabətli iqtisadi mühitdə belə bazar iflası (market failure) hallarına rast gəlmək mümkündür.

### Rəqabətli iqtisadiyyatda bazarın iflası və bu prosesdə korrupsiyanın rolu

Qeyd edildiyi kimi neoklassik nəzəriyyəyə görə dövlətin azad və rəqabətli bazara istənilən növ və həcmdə müdaxiləsi onun nizamını əsaslı şəkildə pozmuş hesab edilir. Halbuki, real təcrübə ona dəlalət edir ki, müdaxilənin tamamilə istisna edilməsi heç də müsbət nəticələrə gətirib çıxarmır. Belə ki, iqtisadiyyata dövlət müdaxiləsi o zaman zərərli nəticələrə səbəb ola bilər ki, onun məqsədi ictimai maraqlara – azad bazar münasibətlərini stimullaşdırmağa və onu xarici mənfi təsirlərdən qorumağa yox, şəxsi maraqlara xidmət edən qanunsuz və əsassız üstünlük əldə etməyə yönəldilsin. Hətta dövlət müdaxiləsi ictimai marağın təmini naminə olsa belə, həddindən artıq bona fide xarakterli müdaxilə belə rəqabətlilik prinsipinə xətər yetirə bilər. Odur ki, bu məqamda müdaxilənin hansı həcmdə və hansı növ iqtisadi münasibətlərə istiqamətlənməsi meyarlarının əvvəlcədən dəqiqliklə müəyyən edilməsi son dərəcə əhəmiyyətlidir (Ghili və Kumar, 2020).

Məsələn, sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərə dəstək xarakterli güzəştli kredit verilməsinin nəticələri seçim meyarını müəyyən edən şərtlərdən asılı olaraq mənfi və ya müsbət ola bilər. Müsbət o halda ola bilər ki, bu kreditlər yeni yaranmış, kənar təsirlərə qarşı kövrək və dəstəyə ehtiyac olan sahibkarlıq subyektlərinə verilsin. Kreditin verilməsi üçün sahibkarlıq subyektinin zəngin kredit tarixçəsinin və ya böyük həcmdə maliyyə dövriyyəsinin olmasının ilkin şərt kimi qoyulması isə əksinə mənfi hal kimi qiymətləndirilə bilər. Belə ki, ikinci halda güzəştli kreditin əsaslı maliyyə resurslarına sahib olan daha güclü şirkətlər tərəfindən əldə edilməsi ehtimalı daha çox olur. Güzəştli kredit iri sahibkarlıq subyektinə verildikdə isə bu onları kiçik və orta sahibkarlara nisbətdə daha da gücləndirməklə rəqabətlilik mühitini pozmuş olacaqdır (Anatoliy və digərləri, 2021).

Rəqabətli bazarın iflasına gətirib çıxaran hallara həm də iqtisadi nəzəriyyədə tez-tez istifadə edilən Nəzarətçi-Agent (principal-agent) prizmasından yanaşmaq olar.

Hər hansı növ ictimai münasibətlərin tərəflərinin şərti olaraq Nəzarətçi və Agent adlandırıldığı bu yanaşmadan müxtəlif sahələrdə, o cümlədən korporativ idarəetmə, siyasət və iqtisadiyyatda nümayəndəlik və hesabatlılıqla bağlı məsələlərin həlli üçün geniş istifadə olunur.

Bu yanaşmaya görə konkret məqsədlər üçün Nəzarətçi Agentə tapşırıq verən və üzərinə öhdəlik qoyan, Agent isə Nəzarətçinin tapşırığını yerinə yetirmək öhdəliyi daşıyan şəxs və ya qurumlar ola bilər. Agentin öz maraqları ola bilər ki, bu da Nəzarətçinin ona həvalə etdiyi öhdəliklərdən kənara çıxa və ya bu öhdəliklərlə ziddiyyət təşkil edə bilər.




*Mənbə: Principal-Agent Problem (wallstreetmojo.com)*

Belə ki, bu münasibətlərdə bir vəziyyətdə Nəzarətçi olan subyekt eyni anda digər vəziyyətdə Agent ola bilər. Başqa sözlə, bu münasibətlər statik olmadığı üçün elə qurulmalıdır ki, hər biri öz funksionallığını effektiv yerinə yetirə bilsin. Əyani nümunə kimi göstərmək olar ki, seçki yolu ilə vəzifə tutmuş şəxslər vətəndaşlar qarşısında Agent, öz tabeliyində olan dövlət qulluqçularına münasibətdə Nəzarətçi, vətəndaşlar vergi ödəyicisi qismində müvafiq dövlət qurumu qarşısında Agent hesab edilirlər. Nəzarətçi-Agent əlaqələri o halda bazarın iflasına səbəb olur ki, Agent iş sahəsi barədə Nəzarətçidən daha çox informasiyaya sahib olur. Belə olan halda Khan və Royun vurğuladığı kimi Agent öz şəxsi mənafeyi üçün ictimai mənafe ilə bağlı zəruri olan informasiyanı təhrif edə (və ya gizlədə) bilir və bu da digər korrupsiya hüquqpozmalarına gətirib çıxarır (2022).

Misal üçün, sığorta şirkəti (burada Nəzarətçi statusundadır) müştəriləri tibbi sığorta edərkən sığorta olunan şəxslər (Agent statusunda) real sağlamlıq vəziyyətləri haqqında informasiyanı sığorta şirkətindən gizlədərlərsə sığorta müqaviləsi bağlandıqdan sonra həmin xəstəliklərin müalicəsi

üçün proqnozlaşdırılmayan əlavə maliyyə xərcləri yaranacaqdır və bu da sığorta bazarının zəifləməsinə gətirib çıxaracaqdır. Eyni tipologiyanı vergi bəyannamələrinin təqdim edilməsi məsələsinə də aid etmək olar (Panzabekova və Janbozova, 2016).

Başqa bir nümunə kimi göstərmək olar ki, kommersiya bankının filial müdirinin (Agent) həyata keçirdiyi maliyyə əməliyyatlarına həmin bankın idarə heyətinin (Nəzarətçi) effektiv monitorinq mexanizmi mövcud deyildirsə, bu halda korrupsiya hüquqpozmasına yol verilməsi riski böyük olur.

## İqtisadiyyatın dövlət tənzimlənməsi və renta axtarışı məsələləri

Qeyd edildiyi kimi neoklassik nəzəriyyənin dövlət müdaxiləsinə qarşı olmasında haqlı olduğu bir sıra məqamlar da var. Bunlardan biri də qeyri-təbii inhisarlardır. İnhisar o halda korrupsiya təzahürü ola bilər ki, dövlət normativ hüquqi bazanı elə formada tənzimləyir ki, müəyyən istehsalçılar kateqoriyası bazarda digərlərindən daha əlverişli şərtlərə malik olur və bu yolla da onların təklifi digər istehsalçıların təkliflərindən açıq-aşkar daha sərfəli olduğu üçün istehlakçılar birinci qrupun təklifinə üstünlük verir. Bu da tədricən digər təklif subyektlərini bazardan çıxarır, onların rəqabətə qarşı müqavimətini qırır. Nəticədə bazarda hakim mövqeyə sahib olan inhisarçı subyekt bütün alternativləri sıradan çıxardığı üçün istehlakçılara qiyməti özü diktə edir.

Təbii inhisarçılığı isə dövlətin müsbət müdaxiləsi kimi qiymətləndirmək mümkündür. Məsələn, təbii resurslar və hasilat sənayesi üzərində olan təbii inhisarçılıq şəffaf və hesabatlı olmaqla ictimai mənafeyə xidmət edərsə zərərsizdir (Panzabekova və Zhanbozova, 2016).

Neoklassik iqtisadi yanaşmanın qarşı olduğu anlayışlardan biri də renta axtarışıdır (rent-seeking). Renta axtarışı iqtisadi subyektin azad və rəqabətli bazar iqtisadiyyatı qaydalarını gözləməklə götürə biləcəyi maksimal faydadan daha artıq fayda götürmək imkanıdır. İnhisarçılıq özü də renta axtarışının növü kimi çıxış edə bilər (Khan 2000 b). Misal üçün, hesab edək ki, kənd təsərrüfatı sahəsi üzrə ixtisaslaşmış qurum taxılçılıqla məşğul olan kiçik fermerlərə subsidiya ayrılması üçün sosial proqram hazırlayır. Lakin iri fermerlər həmin qurumun vəzifəli şəxslərinə təsir və təzyiq edərək proqramın əhatə dairəsinin genişləndirilməklə iri fermerləri də əhatə etməsinə nail olurlar. Bu da büdcədən ayrılmış vəsaitin daha kiçik proporsiyalara bölünməsinə səbəb olmaqla kiçik fermerlərə hər hansı bir töhfə vermiş olmur. İri fermerlər isə qaydaları öz xeyirlərinə manipulyasiya etməklə rentadan faydalanmış olur və nəticədə isə bazarda hakim mövqedə qalmağa davam edirlər (Booji və digərləri, 2021).

Bununla belə, neoklassiklərin iddia etdikləri kimi renta axtarışı heç də həmişə zərərli deyil. Çoxsaylı müsbət nümunələrdən biri kimi qeyd etmək olar ki, Azərbaycanda “ABAD” - Ailə Biznesinə Asan Dəstək publik hüquqi şəxs öz fəaliyyəti ilə mikro, kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabət qabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək göstərir, onlara ödənişsiz biznes konsultasiyaları keçirir və onların istehsal etdiyi məhsulların müxtəlif sərgi və satış mərkəzlərində nümayiş etdirilməsini təmin edir. Bu nümunədə dövlət renta axtarışı fəaliyyəti ilə rəqabətli bazarın güclənməsini təşviq edir (Azərbaycan, 2023).

## Çətinliklər və mümkün həll yolları

Ümumi götürəndə iqtisadi risklərin dəf edilməsində hüquq münasibətləri mühüm əhəmiyyətə malikdir. Qanunun aliliyinin təmin olunduğu iqtisadiyyatlarda bazar iflasının qarşısını almaq nisbətən daha asan başa gəlir. Məsələni Nəzarətçi-Agent modeli prizmasından belə izah etmək olar ki, hüquqi dövlətdə effektiv monitorinq vasitəsilə Nəzarətçi hesabatlılığın və şəffaflığın artırılması yolu ilə informasiya asimmetriyasının aradan qaldırılmasına və effektivliyin artırılmasına nail ola bilər. Bundan əlavə, ağlabatan məbləğdə əmək haqqının müəyyən edilməsi və yol verilən hüquqpozmalara görə effektiv və ədalətli sanksiyaların nəzərdə tutulması Agentləri informasiyanı gizlətməkdən və korrupsioner fəaliyyətdən çəkindirə bilər (Davis, 1996).

Əksinə, qanunun aliliyi mövcud olmayan iqtisadi mühitdə isə Nəzarətçi funksiyası effektiv olmadığı üçün Agentə qarşı adekvat sanksiya mexanizmi də mövcud olmur. Bundan əlavə, Nəzarətçilər özləri belə korrupsiyalaşmış ola bilərlər.

Beləliklə, sonuncu ssenaridə bu model effektiv deyildir. Bundan əlavə, qanunun aliliyi təmin olunmayan iqtisadi mühitlərdə mülkiyyət hüquq

və münasibətləri də təminatlı və sabit olmur ki, bu da iqtisadiyyata subyektlər tərəfindən əsaslı investisiya qoyuluşunu zəiflətmiş olur (Davis, 1996).

Qeyd edilənləri ümumiləşdirməklə belə qənaətə gəlmək olar ki, rəqabətli iqtisadi mühitdə korrupsiya təzahürlərinin qarşısını almaq üçün institusional və hüquqi çərçivə elə formalaşdırılmalıdır ki, azad bazar münasibətlərinin rasional və müstəqil seçim əsasında formalaşmasına müdaxilələr yalnız ictimai mənafeyə xidmət etməklə zəif iqtisadi subyektlərin dəstəklənməsinə, habelə məhdud resursların səmərəli və ədalətli bölgüsünə yönəlmiş olsun. Bununla yanaşı, vurğulanmalıdır ki, yalnız institusional və hüquqi çərçivəni formalaşdıran keyfiyyətli normativ bazanın olması korrupsiya problemini həll etməyəcəkdir.

Bir sözlə məsələnin köklü həlli üçün effektiv icra və monitorinq (icraya nəzarət) siyasəti və hüquq pozuntusundan çəkindirmək üçün əsaslı sanksiya sisteminin də işlək olması labüddür. Sözügedən strategiya elə formalaşdırılmalıdır ki, o yalnız bazar iştirakçılarının sui-istifadə imkanlarını deyil, eləcə də səlahiyyətli qurumların da fəaliyyətində korrupsiya risklərini yol verə biləcək diskresion səlahiyyətləri məhdudlaşdırmalı, maraqlar toqquşmasının yaranması ilə nəticələnə biləcək müddəaları istisna etməlidir.

## Nəticə

Yekun olaraq, belə qənaətə gəlmək olar ki, neoklassik iqtisadi yanaşma sadalanan çatışmazlıqlarının olmasına baxmayaraq dünya iqtisadi sistemində aktuallığını qoruyub saxlamaqla özünü doğruldur. Belə ki, bu yanaşma qüsursuz olmasa da, rəqabət təşviq edildikdə, şəffaflıq təmin edildikdə və müdaxilələr ictimai maraqlara uyğunlaşdırıldıqda iqtisadiyyatın səmərəli fəaliyyət göstərməsi mümkündür. Bununla belə, onun effektivliyi mövcud hüquqi və idarəetmə sistemlərindən çox asılıdır.

Hesabatlılığa, şəffaflığa və mülkiyyət hüquqlarının qorunmasına önəm verən qanunun aliliyi rejimi neoklassik yanaşma prinsiplərinin inkişaf edə biləcəyi mühit yaradır. Əksinə, qeyri-şəffaflıq, korrupsiya və qanunun aliliyinin təmin edilmədiyi iqtisadi mühit isə rəqabətli bazarın əsaslarını sarsıda bilər.

Bir sözlə, qüsurlardan vaqe olmayan neoklassik model real dünya şəraitinə düşünülmüş şəkildə uyğunlaşdırıldıqda, bütövlükdə cəmiyyətə fayda verən iqtisadiyyatların formalaşdırılması üçün dəyərli bələdçi olaraq qalmaqdadır.

## İstinadlar


– Anatoliy M., Kateryna A., Mariya F. & Olha, I, 2021. Competitive models of safe development of Ukraine in conditions of institutional instability and global environmental challenges. SCIENTIFIC SUPPORT OF INSTITUTIONAL REFORMS, Volume 11, 21 – 37.
– Azerbaijan, 2023. abad.gov.az. Available at: https://abad.gov.az/about.
– Becker, G.S., 1978. The economic approach to human behavior. Chicago, USA: University of Chicago Press.
– Booji T., Verburgh T., Falconieri F. & Wegberg R., 2021. Get Rich or Keep Tryin' Trajectories in dark net market vendor careers. IEEE European Symposium on Security and Privacy Workshops (EuroS&PW), September, Volume 1, 202 – 212.
– Davis M., 1996. The Impact of Rules Allocating Legal Responsibilities between Principals and Agents. Managerial and Decision Economics, 17(4), 413 – 420.
– Ghili S. & Kumar V., 2020. Spatial Distribution of Supply and the Role of Market Thickness: Theory and Evidence from Ride Sharing. Available at: https://papers.ssrn.com/sol3/papers.cfm?abstract_id=3520187.
– Offer A., 2012. Self-interest, Sympathy and the Invisible Hand: From Adam Smith to Market Liberalism. Economic Thought, 1(2), 1 – 30.
– Panzabekova Z. & Zhanbozova B., 2016. The development of a competitive private sector as the direction of the state anti-corruption strategy, Economics and Environmental Management, Volume 4, 57 – 64.
– Smith A., Bullogh C.J. and Parthsarathi P., 2022 (edition). The Wealth of Nations. New York, USA: Fall River Press.
– Khan M.H., 2000 a. Rents efficiency and growth 3 – eprints.soas.ac.uk. Available at:<https://eprints.soas.ac.uk/9842/1/Rents_Efficiency_and_Growth.pdf>.
– Khan M.H., 2000 b. Chapter 2. rent -seeking as process - core. Available at: <https://core.ac.uk/download/pdf/2792081.pdf>.
– Khan M.H. and Roy P., 2022. Making anti-corruption real: Using a 'power capabilities – SOAS. Available at: <https://eprints.soas.ac.uk/37906/1/ACE-SynthesisPaper001-MakingAntiCorruptionReal-1.pdf>.


**Qeyd:** Bu yazı müəllifin təhsil aldığı Beynəlxalq Anti-Korrupsiya Akademiyasına 4-cü modul üzrə tədris prosesində (06.09.2023-cü il tarixdə) təqdim etdiyi sərbəst tapşırığın məqalə formatına uyğunlaşdırılmış versiyasıdır. Məqalədə Anglia Ruskin Harvard istinad sistemindən istifadə edilmişdir.


**Natiq Eyvazov**
**Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi, ədliyyə müşaviri**